**UOT 008(091)**

**Xaləddin**
**Sofiyevkulturologiya üzrə fəlsəfə**
**doktoru, dosent**
***Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti***
***Az-1065, Bakı, İnşaatçılar prospekti 39***
***E-mail:*** sofiyev.xaleddin@mail.ru

# QLOBALLAŞMA PARADİQMASININ TÖRƏTDİYİ YANAŞMALAR

**Xülasə:** Qloballaşma minillərlə mədəniyyətlər arasında formalaşmış sərhədləri silmək təhlükəsini yaratdığı üçün sivilizasiyalar arasında konfliktləri alovlandırır. Bu yanaşma Hantinqtona xasdır.

Digər yanaşmaya görə qloballaşma mədəniyyətləri və ənənələri dağıdır. Üçüncü yanaşmaya görə isə qloballaşma dünyaya görünməmiş temp və ritm verir (D.Xarve). Böyük dünyanı sürət texnologiyasının sayəsində sıxlaşdırıb kompakt məkana çevirir. Marşal Maklyuen dünyanı “qlobal kənd” adlandırmışdı. Mass media nəticəsində genişlənib. Qlobalizasiya sürətlə sıx bağlı hadisədir. Ona görə də belə bir qanunauyğunluq formulə etmək olar: siyasət, hərb, iqtisadiyyat, din və sənət sahələri yüksək sürətpillələrini fəth edəndə qaçılmaz olaraq ekspansionizmə meyillənirlər və bu, onların dəyərlərini, təsirlərini qlobal miqyasda yaymaq, yəni qloballaşmaq istəyində təzahür edir.

**Açar sözlər:** sivilizasiyaların münaqişəsi, mədəni imperalizm, milli dəyərlər.

Müasir kulturologiya və sosiologiyada qloballaşmaya müxtəlif münasibətlər mövcuddur. Onları belə ümumiləşdirmək olar. Bir yanaşmaya görə, o, mədəniyyətlərarası qeopolitik müstəvidə yeni situasiya deməkdir. Qloballaşma min illərlə mədəniyyətlər arasnda formalaşmış sərhədləri silmək təhlükəsini yaratdığı üçün sivilizasiyalar arasında konfliktləri alovlandırır. Bu yanaşma Hantinqtona xasdır.

Digər yanaşmaya görə qloballaşma mədəniyyətləri və ənənələri dağıdır. Üçüncü yanaşmaya görə isə qloballaşma dünyaya görünməmiş temp və ritm verir (D.Xarve). Öncələr həftələrlə əmələ gələnlər və ya baş tutanlar indi saatlar içində baş verir [13,c.378] . Qloballaşmanın bu yüksək sürət parametrinin qəribə nəticələri var. Bir nəticəsini artıq, yazmışıq. Qlobal dünyada kompüter masalarının arxasında oturanlardan tutmuş əyləncə sənayesinin istehlakçılarınacan hamı hövsələsizlik «virusuna» yoluxur. Digər nəticə odur ki, bizim qloballaşan dünyamız günbəgün balacalaşır [8,p.IX]. Dünyanın balacalaşma illüziyası təkcə təyyarələrdə tez-tez müxtəlif ölkələrə, şəhərlərə uçan biznes adamlarında, siyasilərdə baş vermir. Heç səyahətə çıxmayanlar da kabel, peyk TV-lərin, İnternetin, sosial şəbəkələrin və s. sayəsində dünya ilə bağlı uzaq məsafə hissiyatını itirirlər. İnternetdən şəxsi kompyuterə kitab, musiqi, film yükləmək isə çətinliklə tapılan mədəniyyət məhsullarını insan qavrayışının periferiyasına sıxışdırır.Beləcə, aydın olur ki, qitələrin və bölgələrin bir-birinə uzaqlığı hissi və fikri primtiv nəqliyyat vasitələrindən doğan məsafə duyğusudur. Halbuki məsafə sosial şəraitin məhsuludur. Onun uzunluğu həmin məsafəni keçmək sürətindən asılı olaraq dəyişir. Ona görə də bir çox sosial reallıqlar, quruluşlar, ayrılmalar, sərhədlər sürətə baxanda ikinci gəlirlər.

Üç min il mədəniyətlərin qarşılıqlı təsiri, bütün sədlərə baxmayaraq, ən bilinməz kanallarla bir-birinə sızmışdı. Lakin deməliyik ki, şəkillərin, ikonik işarlərin hərəkət sürəti, düşüncə, kommunkasiya

formalarının yayılması çağımızda olan qədər əvvəllər heç vaxt olmamışdı. Ona görə də qloballaşmanın ən əyani, birbaşa qavranılan ifadə formaları mədəniyyətdən gəlir. Adi insanlar üçün ötən əsrin axırındaindiki əsrin əvvəllərində «Koko-kola», «Makdonalds», CCN-in xəbərləri, Madonna belə simvollardan idi.Sözsüz, kürrəsəl proseslərin sürəti elədir ki, onun ikonaları olan siyahı tez-tez təzələnir və artır. Günümüzdə Madonna yox, Leydi Qaqa kimi müğənnilər qlobalizasiyanın simvoludurlar, «Koka-kola»- nın yanına yoqurt, «Makdonalds»-ın yanına şaurma, dönər durur. Ona görə demək olar ki, qloballaşmanın ikona siyahısının «milli tərkibi» sürətlə dəyişir. Bu prosesə görə, onu, artıq, Amerikanın kültür imperializmi kimi ittiham etmək çətinləşir, çünki müasir qlobal proseslərdə bir çox başqa mədəniyyətlərdən alınma simvollar da iştirak edir. Hərçənd faiz etibarı ilə ABŞ mədəniyyətinin payı yenəböyük qalır. O biri tərəfdən, istənilən lokal-milli dəyər qloabllaşmanın siyahısına düşmək üçün öncə Qloballaşmanın mərkəzindən «sertifikat» almalıdır.

Dünyada transmilli, transregional korporasiyalar, şirkətlər beynəlxalq aləmin subyekti olanda burada da simbiozlaşma, sinkretikləşmə prosesi baş verir və nəticədə transmilli iqtisadiyyat transdini, transmədəni proseslərlə çulğalaşır. Çulğalaşma təkcə pozitiv planda getmir. Pozitiv planda gedəndə din, sənət, əxlaq, siyasət qlobal iqtisadi proseslrin dərki və müdafiəsi olur. Çulğalaşma neqağtiv planda gedəndə isə antiqlobalizm ruhunda qlobal tənqid, qiyam və dekonstruksiya yaranır. Bu o deməkdir ki, qlobalizasiya indiki dünyanın sürət texnologiyası, transmilli, transregional iqtisadiyyatı, kürrəsəl şəbəkəsi qalsa, qarşısıalınamz proses olacaq və ona qarşı hər hansı lokalçı, ideoloji, dini mübarizə isə yenə qlobalizm faktı olacaq. Çağımızdakı transmilli anti-qlobalizm kimi. Maraqlıdır ki, «anti-qlobalizm» terminінə 1995-ci ildən qabaq rast gəlmək olmaz. 1995-ci ildən sonra o da məhz qlobalizmin məhsulu olan Mass-medianın sayəsində dövriyyəyə düşdü [10, p.8].

Biz artıq qlobalizasiya mühitində yaşayırıq. Bu danılmazdır. «Biz» əvəzliyi isə Qərbi, Şərqin və Cənubun, Şimalın böyük insan kütləsini əhatə edir. «Qlobalizasiya» artıq «müasir dövr» sözbirləşməsinin sinominə çevrilib, daha dəqiq desək, həmin anlayışı sıxışdıraraq yerinə keçib [2,p.1]. Lakin «müasir dövrün» haçandan başlayıb haçanacan davam etməsi qeyri-müəyyən qaldığı kimi qlobalizasiyanın gələcəyi də qeyri-müəyyəndir. Bir vaxtlar mədəniyyətşünaslıqda milliliklə beynəlmiləlliyin vəhdəti haqqında «sxolastik» söhbətlər onun üçün idi ki, böyük dünya proseslərində milli dəyələr sistemi unudulmasın. Əsrimizin əvvəllərində «qloballıq/lokallıq» oppoziyası oxşar sözlərə çevrildi. Qlobalizasiyanı tərifləyənlər lokal mədəniyytlərin qorunmasının vacibliyini də vurğuladılar. Bir xeyli nəzəriyyəçi dünyada baş verən qloballaşmanı qarşısıalınmaz fakt kimi qəbul etsə də bu mühitdə müxtəlif mədəniyyətlərin bir-biri ilə eyniləşməsinin (unifikasiysının) təhlükələrini göstərdilər. Qlobalizasiyanın qarşısıalınmzlığını Markus Bauernfaynd (Markus Bauernfeind) hətta stixiya metaforasında açaraq göstərdi ki, o istənilən vaxt işə salınan, istənilən vaxt dayandırılan hadisə deyil. Qlobalizasiya külək, su kimi təbiət qüvvələrinin iqtisadi ekvivalentidir. Qloballaşmanı hərəkətə gətirənlər (drayverlər) isə aşağıdakılardır:

1) Texnologiya – o müasir sənaye və transportasiyada inqilab yaradan innovasiyaları formalaşdırır (məsələn, kommersiya tipli reaktiv təyyarıləri, kompyuterlər üçün mikroproseslərdə əldə edilən innovasiyaları).
2) Siyasi, ticari qaydaların liberallaşması, bazarın derequlyasiası, tariflərin azalması – onlar hamısı beynəlxalq müstəvidə birbaşa yatırımlara gətirib çıxarır [7,p.3].

Bax, bu kontestdə, anti-qlobalist ruhda davranaraq qloballaşmanı dayandırmaq çağırışı ilə çıxış etmək utopizm, anaxronizmdir. Sovet dövründə Azərbaycan kimi ölkələrdə «hifz etmək», «qorumaq» milli dəyərlərlə bağlı ən işlək anlayışlardan idi. Sovet ideologiyasından gəlmə beynəlmiləllik çağırışı mühitində bu anlayışların populyarlığı milli dəyərlərin qalması üçün ovqat yaradırdı və nəticədə milli dəyərləri qorumaq tezisi aksiomatik həqiqət kimi qəbul olunurdu. Beynəlmiləlliyə milli dəyərlərlə bağlı perspektiv kimi baxılırdı, yəni tədqiqatçıların üstünə öhdəlik qoyulurdu ki, milli dəyərlərin beynəlmiləl perspektivlərini açmalıdırlar. Yalnız «hicab», «cəhalət» kimi milli keyfiyyətlərə bu perspektiv rəva sayılmırdı.

Qlobalizasiya mühitində təsvir etdiyimiz sxem yenə qalır. Cəhaləti, vəhşi adətləri çıxmaqla heç bir milli fakt qlobal dünya fonunda aşağılaşdırılmır. Nəinki aşağılaşdırılmır, hətta deyilir ki, qloballaşma milli mədəniyyətlərə xidmət etməlidir. Buna bir örnək. Araşdırmalar aydın edir ki, Yaponiyada milli ideya axtarışlarına güclü təkanı qlobalizasiya vermişdi, çünki məhz kürrəselləşmə mühitində milli mədəniyytin itmək qorxusu böyümüşdü və bu, onu qorumaq, gəlişdirmək ideyasına təkan vermişdi [12,c.180]. Bu həm də konservativizmə təkan vermişdi. Konservativizm siyasi dəstəyini alandan sonra mədəniyyət sahəsində daha saygı doğurucu imic alır. Maraqlıdır ki, məhz qlobalizasiyanın dünya ilə iri addımlarla irəlilədiyi dövrdə siyasətdə Ronald Reyqan və Marqaret Tetçerin simasında konservativizm

populyarlıq qazanmışdı. Mədəniyyətdə isə konservativizm anti-qlobalist ideologiya olmasa da qlobal eyniləşmə mühitində ənənəvi dəyərlərin qorunmasını önəmli mədəni akta çevirmişdi.

Yeri gəlmişkən, qloballaşmanın baş akytorları (arxitektorları) olan ABŞ, Britaniya, Yaponiya kimi ölkələrdə konservativ ideologiya daşıyıcıları olan partiyaların uğurları, ictimai xadimlərin popuyarlığı göstərir ki, qloballaşma bütün milli özəllikləri, milli dünyaları darmadağın edən sunami deyil. Qloballaşmış dünyada cürbəcür milli «guşələri», sahləri qorumaq üçün, daha doğrusu, yeni mühitdə yaşarlı etmək üçün yetərincə mexanizmlər var. Həmin mexanimzlərdən biri milli, dini və başqa azlıqların hüququnun qorunmasıdır. Bu hüquqa görədir ki, qloballaşmanın intensivliyi maksimuma çatan ABŞ, Kanada və Qərbi Avropa ölkələrində müsəlman, buddist azlıqlar öz dünyalarını, dillərini qoruya bilirlər. Qloballaşma prosesində mədəniyyətlrin qarışmasını, bir-birində əriməsini ən müxtəlif faktlarda və hadisələrdə görmək olar: Amerika və yapon menecmentini birləşdirən şirkətləri, ikili vətəndaşlığı, müxtəlif mədəniyyətlərin qaçılmaz transformsiyalarını – bütün bunları «hibridlik» teprmini ilə xarakkterizə etmək olar. Daha sonra Marvan Kreyli əlavə edir ki, «sinkretizm»ə, «kreolizm»ə baxanda o, termin kimi «hibridliy»ə daha çox üstünlük verir, çünki bu termin daha geniş anlayışı daşıyaraq hətta memarlıqda, idmanda, turizmdə gedən yeni prosesləri də əhatə edir [6,p.1-2].

Qlobalizasiyanın başqa tədqiqatçısı Corc Ritzer (George Ritzer) post-strukturalizminnomadikliklik (köçərilik) termini ilə hibridlik terminini qoşalaşdıraraq kürrəsəl poseslərlə bağlı aşağıdakı fikri söyləyir: qloballaşmanı intellektual nomadik mövqedən düşünmək daha faydalıdır, çünki bu prosesin fiksə olunmuş əsası yoxdur. Nitsşedən tutmuş post-modernist mütəfəkkirlərəcən bir çoxları çox ölçülü postmodern subyektinin ortaya çıxacağını irəlicədən söyləmişdilər. Bu post-ənənə subyekti çoxyönlü hibrid nomadik subyekt kimi təsvir olunmuşdu. Onun konkret məkanda kökü olmamalı idi, o, çoxperspektivli, öz mədəniyyətini və dəyərlərini özü yaradan olmalı idi [ 11,p.72,77].

Lakin maraqlıdır ki, qloballaşma çox böyük sürətlə «demokratikləşməyə», plüralistikləşməyə başladı. Onu yeridən baş aktyorların arasında Alman, Fransız, Yapon, Cənubi Koreya mənşəli transmilli korporasiyalar peyda oldu. İqtisadi palanda baş verən bu tərəqqi mədəniyyət planında da öz əksini tapdı. Modalarda Qərb paltar elementlərinin yanında yapon, türk, Çin ünsürləri yer tutmağa başladı. XXIyüzildə qlobalizasiyasının insani, personoloji siması da dəyişdi. İndi bütün irqlərdən parlaq elm, sənət, biznes adamları qlobal dünyanın insan qalereyasını daxil olaraq ağ irqin (madonnaların) dominantlığına son qoyublar. Hollivudun aktyor seçimində, yaxşı-pis adamların irqlər arasındakı paylşmasında tarazlığın gözlənməsi bütün müstəvilərə sirayət edib. İndi gözəllik yarışlarında ağ irqin dominantlığı da azalıb. İdman və musiqi, «Forbs» siyahıları qlobal dünyanı ən müxtəlif irqi simalarda təmsil edir. Bu yeni situasiaya görə öncələr «qlobalizasiya amerikanizasiyadır» deyimini məşhur jurnalist Tomas Fridmen yeni mərhələdə yumşaltmalı oldu. Əslində yumşalma iki mərhələ də getdi. Öncə «qlobalizasiya amerikanizasiyadır» formulası «qlobalizasiya Qərbin öz hegemonluğunu yeritmə prosesidir» formulasına çevrildi [4,s.289]. Yəni Amerika Bütün Qərblə əvəz olundu. İndi isə qlobalizasiyada iştirak edənlər sırasında Qərb də var, Şərq də var, Cənub da var, Şimal da var. Ona görə də son yumşaldıcı formula belədir: qloballaşma bir biçimli deyil, çoxmərkəzli və hamar axmayan prosesdir [5,p.30].

Qlobalizasiya, dedik ki, böyük dünyanı sürət texnologiyasının sayəsində sıxlaşdırıb kompakt məkana çevirir. Maklyuen dünyanı «qlobal kənd» adlandıranda onu nəzərdə tuturdu ki, elektron informasiya vasitələri sayəsində dünya kənd kimi kompaktlaşıb və kənddə hamı bir-birini tanıdığı kimi dünyada da tanışlıq dairəsi Mass media nəticəsində genişlənib [1,p.8-10]. Lakin o biri tərəfdən, qlobalizasiya dünya haqqında özünün törətdiyi kompaktlıq illüziyasını dağıtmağa məhkumdur. Bu, onun kulturoloji baxımdan maraqlı tərəfidir. Mədəni istehlakın intensivliyi yeni məhsullara elə bir aclıq yaradır ki, heç nə onu doydurmur. Görün gündə nə qədər film çəkilir, nə qədər mahnı bəstələnir və nə qədər tədbirlər keçirilir. Ancaq qıtlıq hissi yenə qlobal dünyanı tərk etmir. Yeni filmlərin, yeni musiqilərin, yeni dəblərin həzz vermək baxımından ömrü çox çəkmir, ona görə də yenilərə ehtiyac həmişə qalır. Ronald Robertson yazır ki, dövrümüzdə dünyaya tam qlobal yanaşma cəhdlərinin şaxələri artmaqdadır. Buşaxələr yaxın tarixin qlobal hadisələrinə, formalarına cəmlənməklə bitmir. Dünya tarixi üzrə kitab və esselərin sayı artır [9,p.29].

Çağımızda kim və hansı qüvvə obyektlərin, işarələrin, insanların regionlar, qitələr arasında hərkətini təqdir edirsə, qlobalizasiyanın və deməli, həm də mədəniyyətin qloballaşmasının tərəfdarı olur [3,p.329]. İndi yalnız marginal qüvvələr anti-qlobalistdirlər. Bütün qitələrdə qeyri-marginal kütlələr, artıq, qlobalizasiyanı baş vermiş, geri dönməz fakt kimi qəbul ediblər. Hətta İŞİD kimi anti-Qərbçi qüvvələr də qlobalizmin texnologiyası və paradiqmaları ilə silahlanaraq kürrəsəl hərəkat kimi dünyaya öz geyim- niqab və cəza modalarını yaymağa çalışırlar. Qlobalizasiya çoxmərkəzli prosesə çevriləndən sonra artıq konspiroloji ruhda kürrəsəlləşmə üstündə Qərbi suçlamaq dəbdən düşmüşdür. Qlobalizasiya, artıq, dünyanın əsas səhnəsinə, məkanına çevrilmişdir. Bu məkan həm də böyük marketi, bazarı xatırladır.

Bütün xalqlar bu bazara öz malları ilə çıxırlar. Yaxşı satılanlar ortaq mallara çevrilir, satılmayanlar isə milli «anbarlara» qayıdır. Çağımızda çox nadir sənətçi, intellektual tapmaq olar ki, qlobal dünyada başqa millətlərin məhsulları ilə yarışmaq arzusunu özündə gəzdirməsin. Müğənnilər, bəstəçilər, rəssamar, süvenir düzəldən sənətkarlar indi qloballığa düşmən mühit kimi baxmırlar. Hamı bu mühitdə seçilməyi, diqqətə layiq olmağı özünə məqsəd qoyur. Turizm demək olar ki, bütün dünya guşələrini bürüyüb. Terrora, qəzalara baxmayaraq yenə də risk zonalarına turist kimi gedənlər tapılır. Qlobal dünyanın bir mərkəzin diktatından qurtulmasında böyük rolu beynəlxalq turizm oynayır. Onun infrastrukturlara ehtiyacı ən müxtəlif ölkələrdə eyni standartlarda mağaza, restoran və başqa əyləncə yerlərini törədir.Turizm qlobal dünyanı plyuralistləşdirən ən güclü mexanizmlərdən olur.

Söylədiklərimizi belə yekunlaşdırmaq olar:

XX yüzilin sonunda Sosialist düşərgəsinin «Dəmir pərdə»sinin düşməsi, transmilli şirkətlərin qarşısında geniş meydanların açılması informasiyanın, nəqliyatın, transport vasitələrinin sürətli yayımının mümmkünlüyü qloballaşma proseslərinə təkan vermişdi. Demokratik dəyrlərin yayılması da kürrəsəlliyə xidmət etmişdi, çünki bərabərlik (eqalitarizm) seqreqasiyada və ayrı-seçkilikdə özünü göstərən sədlərin dağılmasına gətirib çıxarır.

Qlobalizasiya sürətlə sıx bağlı hadisədir. Ona görə də belə bir qanunauyğunluq formulə etmək olar: siyasət, hərb, iqtisadiyyat, din və sənət sahələri yüksək sürət pillələrini fəth edəndə qaçılmaz olaraq ekspansionizmə meyillənirlər və bu, onların dəyərlərini, təsirlərini qlobal miqyasda yaymaq, yəni qloballaşmaq istəyində təzahür edir. Bu mənada sürət fenomenini məqsədli şəkildə mənimsəyən mədəniyyətlərin mayasında təcavüzkarlıq var.

## Ədəbiyyat:


1. Jack Lule. Globalization and Media: Global Village of Babel. Rowman & Littlefield, 2012, 175 p., p.8-10.
2. Justin Rosenberg The Follies of Globalisation Theory: Polemical Essays. London: Verso, 2002, 218 p., p.1.
3. Global Transformations: Politics, Economics and Culture. California: Stanford University Press, 1999, 515 p., p.327.
4. Halil Ibrahim Bahar. Sosyoloji. Ankara: USAK Books. 2009. 320 s.,s.289.
5. Hopper Paul. Understanding Cultural Globalization. UK: Polity Press, 2007, 233 p., p.30
6. Marwan V. Kraidy. Hybridity, OR the Cultural Logic of Globalization. Pearson Education India, 2007, 240 p.,p.1-2.
7. Markus Bauernfeind. Drivers of Globalization: Integration of Theories and Models. Georgia State University, GRIN Verlag, 2006, 13 p., p.3.
8. Richard Lee. Globalization, Language, and Culture. Infobase Publishing, 2006, 128 p., p.IX.
9. Roland Robertson. Globalization: Social Theory and Global Culture. London: SAGE Publicaion ltd. 1992, 211 p.. p.29.
10. Suman Gupta Globalization and Literature. Polity Press, 2009, 190 p., p.8.
11. The Blackwell Companion to Globalization. John Wiley & Sons. 2008, 752 p., p. 72, 77.
12. Мошняга П.А. Глобализация японской культуры. М.: МАКС Пресс, 2010, 244 с., с.180.
13. Назарчук А.В. Этика глобализирующегося общества. М.: ООО DirectMEDIA. 2002, 378 с.



**Халеддин Софиев**


### Аспекты созданные парадигмой глобализации

### Резюме


В данной статье автор проводит анализ над процессами глобализации во всем мире. По его личным наблюдениям, глобализация несет за собой угрозу разжигания различных конфликтов между цивилизациями, так как имеет склонность к разрушению, тех межкультурных границ, которые строились на протяжении многих тысячилетий. К такой позиции проццесов глобализации придерживается и Хантингтон. Однако по иной позиции к происходящим процессам во всем мире, глобализация разрушительно воздействует на вековые традиции и культуры. А по версии Д. Харви глобализация задает мировой цивилизации динамичный темп и ритм. Благодаря скоростной технологии, она сжимает весь мир и превращает его в компактное пространство. Маршал Маклюэн называл мир «глобальной деревней». Глобализация – это явление, тесно связанное со

скоростью. Поэтому, можно сформировать такую закономерность: когда сферы политики, экономики, религии и искусства покоряют высокие скоростные ступени, они, неизбежно склоняются к экспансионизму, что проявляется в их желании распространить их ценности и влияния в глобальном масштабе.
**Ключевые слова:**конфликт цивилизаций, культурный империализм, национальные ценности

**Khaleddin Sofiev**

**Aspects created by the paradigm of globalization**

**Summary**

In this article, the author analyzes globalization processes around the world. According to his personal observations, globalization carries the threate of inciting various conflicts between civilizations, as it tends to destroy those intercultural borders that have been built for thousands of years. To this position of the processes of globalization, Huntington also adheres. However, on a different position to the ongoing processes around the world, globalization is destructively affecting the age-old traditions and cultures. And according to D. Harvey, globalization sets the world civilization a dynamic pace and rhythm. Thanks to high-speed technology, it compresses the whole world and turns it into a compact space. Marshall McLuhan called the world a "global village". Globalization is a phenomenon closely related to speed. Therefore, it is possible to form such a pattern: when spheres of politics, economy, religion and art conquer high speed steps, they inevitably tend to expansionism, which manifests itself in their desire to spread their values and influences on a global scale.

**Key words:** the conflict of civilizations, cultural imperialism, national values

**Məqalənin redaksiyaya daxil olma tarixi: 10.10.2017 Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 17.10.2017Məqalənin çapa qəbul olunma tarixi: 27.10.2017**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:fəlsəfə üzrə elmlər doktoru, professor Niyazi Mehdi ADMİU-nun Elmi Şurasının 21 dekabr 2017-ci il, 04 saylı qərarı ilə çap olunur**